Nüşabə Səməndər

# “Şair qəlbi olmayan böyük riyaziyyatçı ola bilməz”

İSAXANLI: "RİYAZİYYATLA MƏŞĞUL OLMAQ MƏNİM İÇİMDƏKİ ŞERİYYƏTİ ÖLDÜRƏ BİLMƏDİ, SADƏCƏ, ONUN RİTMİNİ BİR AZ YAVAŞITDI”

Dəyərli alim, "Xəzər" Unlversitetinin rektoru professor Hamlet İsaxanlı geniş ictimaiyyət həm də bədii yaradıcılığına, ədəbiyyata, söz sənətina olan tükənməz marağına , poetik istedadına görə tanıyır və sevir. Istər elmi, istərsə də bədii fəaliyyəti ilə seçilən H. İsaxanlının özü ilə birgə onun şair ömrünə nəzər salaraq, həyat kitabının bəzi səhifələrini çevirməyi qərara aldıq. Onunla söhbətə H. İsaxanlının riyaziyyatdan ədəbi yaradıcılığa aparan yol, dəqiq elmlərlə yanaşı, poeziyaya bəslədiyi marağın kökləri haqda sualla başladıq.

-Lap uşaq vaxtlarımdan ədəbiyyata qeyri-adi məhəbbət bəsləmişəm. Bədii ədəbiyyatdan həzz alırdım. Yaşımın azlığına baxmayaraq, Azərbaycan, Rus, Şərq və Qərb ədəbiyyatı klassiklərinin əsərlərini böyük maraq və aludəçiliklə oxuyurdum. Heç vaxt şer yazmağı qarşıma məqsəd kimi qoymamışam. Şer insanın daxilindəki duyğuları- gözəlliyə münasibətini, həyəcanını, narahatlığını, təbiətə və insanlara olan sevgisini ifadə etmək üçün ən gözəl vasitədir. Mən də duyğulananda yazırdım, ancaq çap etdirmirdim, bəzən məclislərdə başqalarının əsərləri ilə bərabər, öz şerlərimdən də oxuyurdum. Bir dəfə aktrisalardan biri şerimi televiziyada oxudu. Dost-tanışlar zəng edib şeri çox bəyəndiklərini söyləyir və o şerin hansı kitımda olduğunu soruşurdular. Cavab verirdim ki, heç bir şer kitabım yoxdur. Bir neçə bəstəkar şerlərimi götürüb mahnı bəsdələdi. Bütün bunlardan sonra filosof Camal Mustafayev və həyat yoldaşım Nailə xanım şerlərimi toplayıb kitab şəklində çap etdirməyimi istədilər. Təbii ki, bu işdə mən də onlara kömək etdim və beləliklə, bir neçə kitabım işıq üzü gördü.

**- Ədəbiyyata bu qədər vurğun olduğunuz halda, peşə kimi riyaziyyatı seçməyiniz təəccüb doğurur.**

-Ədəbiyyatla yanaşı riyaziyyatı da çox sevmişəm, deyirlər ki, bu sahədə fitri istedadım çox tez özünü biruzə verib. Həmişə ən çətin məsələləri müəllimlər mənə

həll etdirirdilər. Atam riyatçı olduğuna görə mənim də təhsilimi bu sahədə davam etdirməyimi istəyirdi. Əslində riyaziyyatı seçməyimdə onun və professor Əliyar Qarabağlının çox böyük rolu olub. Altıncı sinifdə oxuyarkən, atam məni Bakıya, uzaq qohumumuz olan Əliyar müəllimin yanına gətirib dedi ki, oğlum riyaziyyatdan çox güclüdür, ancaq ədəbiyyata da böyük marağı var, hətta kiçik yazılarımın olduğunu da dedi, buna baxmayaraq, mən istəyirəm, o riyaziyyatçı olsun. Əliya müəllim mənə Hamletin monoloqunu söylədi. Sonra yarızarafat-yarıciddi dedi: “ A bala, atanın gül kimi sənəti var, bacarırsan, riyaziyyatı oxu, ədəbiyyatı sevirsən, yaz. Yazıçıların əksəriyyəti başqa ixtisaslar üzrə təhsil alıblar”. Beləliklə, mən riyaziyyatı seşdim. Riyaziyyat çox ciddi və dərin elmdir, ancaq onun özündə də bir şeriyyət, musiqi var. Şair qəlbi olmayan böyük riyaziyyatçı ola bilməz.

**- İlk dəfə şer yazanda neçə yaşınız var idi?**

- 9-10 yaşında olardım. Əmim rəhmətə getmişdi, ailədə həmişə onun haqqında danışardılar. Əmim məni çox istəyirdi. Yadımdadı, ilk dəfə bu hadisədən təsirlənib yazmışdım:

Dəyişdi həyatın dadı,

Evimizə qada düşdü.

Ürəyim yara bağladı,

Nakam əmim yada düşdü.

Uşaq yaşlarında Azərbaycan yazıçılarından ən çox Cəfər Cabbarlını sevmişəm. Elə onun təsiri ilə də hələ məktəbdə oxuyarkən heykayələr, dram və komediyalar yazırdım. Bir gün yazdıqlarımı toplayıb çox sevdiyim ədəbiyyat müəllimimə göndərdim. O, çox bəyəndi və atama yazılarımı Bakıya aparmağı məsləhət gördüm. Bunu eşitdikdə utandığımdan yazılarımı əvvəl gizlətdim, sonra da məhv etdim.

**-Zaman və məkanın şer yazmağınıza nə kimi təsiri var?**

-Zaman çox mühüm amildir, mənim yaradıcılığımda, demək olar ki, aparıcı xətdir. Şerin yaranmasında uşaqlıq xatirələri böyük rol oynayır. Yazarkən həm keçmişə baxırsan, həm gələcəyə. Həmişə doğulub boya-başa çatdığım kəndə gedərkən

uşaqlıq xatirələrim canlanır. Məkana gedirəm, ancaq keçmiş zamanları xatırlayıram, burada zamanla məkan qovuşur. Məkan həmin məkandır, zaman və insanlar isə dəyişib:

Güllər tanış, qoxu tanış,

Göy otların çoxu tanış.

Ocaq tanış, tüstü tanış,

Kəndin altı-üstü tanış.

Bəs nədən qərib kimiyəm,

Yenə yol çəkir gözlərim,

Nədən belə kədərliyəm,

Pərişandı ilham pərim.

Məkanın rolu odur ki, istər getdiyim xarici ölkələrdə, istərsə də Azərbaycanda gördüyün gözəlliklərdən ilhama gəlib, yazırsan.... Bir çox şerlərim bu cur yaranıb. Bəzən isə nə məkan, nə də zaman rol oynayır. Baxmayaraq ki, yatırsan, yol gedirsən və ya yemək yeyirsən, beyninə bir neçə misra gəlir, səni narahat edir, məcbursan həmin an onu yazasan.

**-Həmişə bədahətənmi yazırsan?**

-Şerin şah misraları əsasən qəfildən, bədahətən gəlir. Mən şerlərimin çoxunu belə yazmışam. Ancaq bədahətən yazılan şerlər həmişə gözələ alınmır, bəzən orada fikir dayaz olur. Planlı şəkildə yazmaq da olur; sənə təsir edib düşündürən bir mövzu ətrafında fikirləşib yazırsan.

**-Yaradıcılığınızda optimist ruh güclüdür, hiss olunur ki, bir şair və bir insan kimi dünyaya optimist nəzərlə baxırsınız.**

-Mən təbiətcə nikbin insanam. Təbii ki, nikbin olmasaydım, mənə edilən hücümları və maneələri dəf edərək bu mövqeyə qalxa bilməzdim. Elə təkcə "Xəzər" Universitetini yaratmaq üçün nə qədər maneələr aşmalı oldum. Ancaq mənim də qəmli, təlatümlü günlərim olur. Qarabağ və digər qanlı faciələr, insan qırğınları kədər, əndişə doğurur:

Sükunətin sinəsində

rəqs eyləyir vəlvələlər,

Ölüm-dirim davasıdı,

aramsız cəngidi dünya.

Qəlbimdəki təlatümlər

müdhiş həyəcan zəngidi,

Duysan lərzəyə düşərsən,

gidi dünya, gidi dünya.

**-"Qədim sual" şerində özünüzə xitabən:**

**"Bu dünyaya nə gətirdim?**

**Bu dünyada nə qoymuşam?**

**Nə bir işi tam bitirdim,**

**Nə həyatdan tam doymuşam..."**

**-deyirsiniz. Həqiqətənmi özünüzdən bu qədər narazısınız?**

-Yaradıcı insanın özündən narazı qalması çox təbiidir, əks halda ciddi işlər görə bilməz. Özündən razı olmaq hər işi bitirmək deməkdir və bu hiss insanda qurmaq-yaratmaq əzmini öldürür. Mən də heç vaxt qazandığım uğurlarla kifayətlənməmişəm, həmişə axtarışlarda olmuşam, çünki bu ən çox sevdiyim işdir, belə olanda mümkündür ki, gələcək nəsil və xalqım üçün nə isə qalsın. Bunun üçünsə gecə-gündüz çalışmaq, əziyyətə qatlaşmaq gərəkdir, əks halda çatdırmaya bilərsən, çünki insanın ömür yolu çox qısadır.

**-Həm alimsiniz, həm şair. Adətən, şairlər çox həssas, təlatümlü, səbirsiz olurlar, alimlər isə əksinə, ciddi, düşüncəli, səbirli. Böyük bir müəllim-tələbə kollektivinə rəhbərlik edirsiniz. Onların problemlərini şair kimi dinləyirsiniz, ya alim kimi?**

-Onlar zahiri fərqlərdir, təbiət etibarı ilə bu insanlar bir-birinə çox yaxındılar, hər bir insanın içində o da var, bu da. Sadəcə, onlardan biri yatmış formada olur, biri oyaq, biri zəif, biri güclü. Bu xarakterin hər ikisi insana lazım olur. Məslən, mən insanları şair həssaslığı ilə dinləyirəm, problemlərin həllində isə alqoritm axtarıram və bu vaxt riyaziyyatçı olmağım köməyimə gəlir.

**-Vaxtınızın və fəaliyyətinizin çoxunu riyazi araşdırmalara sərf etməyiniz bir şair kimi sizdən nələr alıb?**

-Təbii ki, riyaziyyatçı olmasaydım, şerlərimi gənc yaşlarında çap etdirsəydim, kitablarımın sayı çox olardı və yazıb-yaratmaqla şair kimi çox tanınardım. Ancaq düşünürəm ki, riyaziyyatçı olmasaydım, itirdiyim daha çox olardı. Birincisi, ona görə ki, mən riyaziyyat sahəsində xeyli uğurlar qazanmışam və əslində dünyada da bu uğurlarımla tanınmışam. İkincisi, insan gənclikdə çox vaxt təsir altında yazır və bəzən lazım olmayanları da çap etdirir. Mən isə çap olunan zaman artıq sərbəst düşünə bilən adamıydim, riyaziyyatçı kimi tanınaraq hər şeyə tənqidi münasibət bəsləyirdim, şerlərimin ciddi və yaxşı olmasında hesab edirəm ki, riyazi düşüncəm rol oynayır. Riyaziyyatla məşğul olmaq mənim içimdəki şeriyyəti öldürə bilmədi, sadəcə, onun ritmini bir az da yavaşıtdı. Mən gənclikdən yazsam da, sistemli şəkildə yaza bilmirdim, çünki buna vaxtım olmurdu, riyaziyyat elə bir elmdir ki, gərək özünü bütünlüklə ona verəsən.

**-Təbiət elmləri ilə məşğul olan alimlərdən ədəbi yaradıcılığa meyl edənlər çoxdur. Runu necə izah edə bilərsiniz?**

-Alimlər öyrəniblər ki, bioloji cəhətdən insan beyninin sağ yarımkürəsi emosialara, sol yarımkürəsi isə məntiqi düşüncəyə cavabdehdir. Beyin yarımkürələri simmetrik görünsə də , əslində, daxilən qeyri-simmetrikdir, hər insanda bunlardan biri fərqli olur, kimdə sol tərəf güclüdürsə, o, təbiət elmlərinə meyl edir və ya əksinə. Ümumiyyətlə, elmdə fiziklər və liriklər deyilən iki qanad var. Ancaq tarixdə bəzi şəxsiyyətlər (Pifaqor, Ömər Xəyyam, Nəsrəddin Tusi və s.) bu iki qanadı özündə birləşdirib. Elə insanlar, həmişə olub indi də var. Ədəbiyyatçı alimlər və ya şair-yazıçılar da təbiət elmlərinə maraq göstərirlər, ancaq onlar təbiət elmləri ilə məşğul ola bilməzlər, olsalar da dərindən yox. Çünki təbiət elmlərinin çox ciddi strukturu var, bunun üçün xüsusi hazırlıq və məktəb keçmək zəruridir. Təbiət elmlərindən isə ədəbiyyata keçid asandır. Bəzən elə hisslər keçirirsən ki, onları yazmaya

bilmirsən, təbii ki, istedadın varsa. Şair olmaq üçüm mütləq ədəbiyyatçı olmaq lazım deyil, ilham bir çağlayan seldir ki, qarşısını kəsmək mümkünsüzdür:

Nəşəlidir sərin axşam,

Göydə aydır, yerdəsə şam.

Sevən qəlb nə duyğuluymuş!

Sevdalı ruh, qaynar ilham-

Şairliyin kökü buymuş!

**-Bugünkü ədəbi mühiti ardıcıl izləyə bilirsinizmi? Ədəbi prosesdəki çatışmazlıqlar barədə nə fikirdəsiniz?**

- Ədəbiyyatı çox sevdiyimə görə ömrüm boyu Azərbaycan və dünya ədəbiyyatını diqqətlə mütaliə edib öyrənmişəm. Təəssüf ki, son dövr Azərbaycan ədəbiyyatını ardıcıl izləyə bilmirəm, anca məlumatım var. Mənim bildiyim yaxşı ədəbiyyat Ramiz Rövşəndə qurtarır. İndi tək Azərbaycanda yox, bütün dünyada müxtəlif tendensiyalar, müxtəlif cərəyanlar əmələ gəlib ki, bu da ədəbi münaqişəyə gətirib çıxarır. Hazırda çap olunmaq imkanı artdığına görə mətbuatda çap olunan şerlərin bir qismində dərin fikir yoxdur, şerdə çoxlu təkrarlara yol verilir, formanın, qəlibin içində orijinallıq itib, bəzən şerdə həddindən artıq abstraktçılığa yol verilir.

**-"Xəzər" Universitetində tez-tez muğam gecələri təşkil edirsiniz. Şerləriniz melodik olduğuna görə çoxlu mahnılar bəstələnib. Bunlar yəqin ki, musiqiyə hədsiz bağlılığınızla əlaqədardır.**

-Desəm ki, musiqini çox sevirəm, bununla yeni bir söz demiş olmaram, çünki musiqini hamı sevir. Uşaqlıqda kənddə yaşayırdım, musiqi təhsilim yox idi. Amma simfonik musiqini, Qara Qarayevin əsərlərinə qulaq asmağı xoşlayırdım. Şer özü elə musiqidir. Mən sərbəst vəzində yazılan şerləri müəyyən mənada simfonik əsərə, heca vəznində yazılanları isə mahnıya bənzədirəm. Şerlərimi bitirdikdən sonra onları məlum və bəzən də özümdən uydurduğum bir melodiya zərində zümzümə edirəm, bu zaman həm də şerdə olan artıq-əskikliyi düzəldirəm. Füzulinin şerləri musiqi ilə doludur. "Leyli və Məcnun" poemasında bir musiqi var idi, onu da Üzeyir Hacıbəyov açıb, opera yaratdı.

**-Övladlaınızdan sizin yolunuzu, istər elmdə, istərsə də poeziyada, davam etdirən varmı?**

-Dörd övladım var, hamısı da qızdır. Böyük qızım Aygün BDU-nun riyaziyyat fakultəsini bitirərək, xaricdə Lankaster Universitetində menecment üzrə magistraturada təhsilini davam etdirdi. Rus, ingilis, türk dillərini ana dili kimi bilir. İkinci qızım Zeynəb həkimdir, həm də musiqi ilə məşğul olur. Aytən "Xəzər" Universitetinin iqtisadiyyat və menecment fakultəsini, sonra da ABŞ-da magistraturanı bitirdi. O, gözəl şahmat oynayır, Azərbaycan yığma komandasının üzvü olub. Kiçik qızım Ülkər isə psixoloq olmaq istəyir. Övladlarım riyaziyyatçı olmasalar da, hər biri istər idarə etmə baxımdan, istərsə də sənətə və musiqiyə baölılıqları ilə yolumu davam etdirirlər.

**-Fəaliyyətiniz çoxşahəlidir, çox işləyirsiniz, çox yazırsınız. Bu qədər işləmək, üstəlik də ailə qayğıları sizi yormurmu?**

-Çoxşaxəlik, əksinə, olduqca faydalıdır, işə canlılıq və rəngarənglik gətirir, həm də məni bir növ "formada" saxlayır, darıxmağa qoymur. Boş durmağı sevmirəm, yazıram, düşünürəm, axtarıram. Arabir işdən yorulanda şahmat oynayıram.

**-Bu qədər qaynar həyat tərzinə malik insanın gələcək planları haqda soruşmamaq, yəqin ki, günah olardı...**

-Gələcək arzumdur, keçmiş xəyalım,

Biri əlçatmazdır, biri ümyetməz.

Birindən pay umar eşqim, amalım,

Birinin həsrəti, nisgili bitməz.

"Xəzər" Universiteti ilə bağlı həyata keçirmək istədiyim bəzi planlarım çoxdur: iki çer kitabım çapa hazırlanır, elmi-publisistik məqalələrim var, onları da kitab şəklinə salmaq istəyirəm. Gürcü və fars dillərində kitablarım çap olunub, hazırda isə rus, ingilis, çin dillərind\ kitablarım hazırlanır.